# Azərbaycanla ŞƏT arasındakı əməkdaşlıq böyük perspektivlər vəd edir

## Prezident İlham Əliyevin Çinə səfəri əlaqələrin daha da inkişafına töhfə verəcək



**Prezident İlham Əliyevin Çin Xalq Respublikasına işgüzar səfəri çərçivəsində keçirdiyi görüşlər, müzakirə edilən məsələlər, böyük tarixə malik Azərbaycan-Çin əlaqələrinin bu gününün və gələcəyinin aydın mənzərəsini yaradır. Azərbaycan ilə Çin arasında diplomatik münasibətlər 1992-ci ilin aprelində qurulub.**

Bu illər ərzində əlaqələr güclənib, müxtəlif sahələrdə müştərək əməkdaşlıq təşəbbüsləri irəli sürülüb. 1992-ci ilin avqustunda Çin Xalq Respublikasının Azərbaycanda səfirliyi açılıb. 1993-cü ilin sentyabrında isə Azərbaycan Milli Məclisi Pekində səfirliyin açılması haqqında qərar qəbul edib.

Prezident İlham Əliyevin Çinlə əlaqələrin inkişafına xüsusi diqqət göstərdiyini qeyd edən Milli Məclisin deputatı Vüqar Rəhimzadə "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, 2003-cü ildən sonra dövlətimizin başçısı bir neçə dəfə Çində rəsmi səfərdə olub: "Son illər ərzində Azərbaycan-Çin münasibətləri yüksələn xətlə inkişaf edir. Avqustun 31-də Çinin Tiencin şəhərində Prezident İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşü oldu. Si Cinpin Azərbaycan ilə Çin arasında 30 ildən artıq dövr ərzində uğurlu əməkdaşlıq münasibətlərinin qurulduğunu və hazırda əlaqələrimizin hərtərəfli strateji tərəfdaşlıq müstəvisində inkişaf etdiyini vurğulayaraq, ölkələrimiz arasında ticarət dövriyyəsinin artdığını, energetika, o cümlədən bərpaolunan enerji, rəqəmsallaşma sahələrində əməkdaşlığın genişləndiyini vurğuladı. Si Cinpin "Bir kəmər, bir yol" layihəsi çərçivəsində də Azərbaycan-Çin əməkdaşlığının möhkəmləndiyini deyərək, Azərbaycan ərazisindən Çin mallarının daşınmasının əhəmiyyətini qeyd etdi, bu xüsusda Trans-Xəzər marşrutunun önəminə toxundu".

V.Rəhimzadənin sözlərinə görə, Prezident İlham Əliyev ölkəmizin xarici siyasətində Çin Xalq Respublikası ilə əlaqələrin inkişaf etdirilməsinin prioritet istiqamətlərdən biri olduğunu bildirərək, Azərbaycanın Tayvan, Honkonq və Sincan-Uyğur Muxtar Rayonu məsələlərində Çinin mövqeyini dəstəklədiyini və Tayvanda keçirilmiş seçkiləri pisləyən ilk ölkələrdən biri olduğunu qeyd etdi. Dövlətimizin başçısı "Bir kəmər, bir yol" layihəsinə toxunaraq, onun vacib tərkib hissəsi olan və Azərbaycan ərazisindən keçən Orta dəhliz vasitəsilə daşımaların, xüsusilə, Çin yüklərinin daşınmasının artmasını bu dəhlizin səmərəliliyinin və cəlbediciliyinin nümunəsi kimi qiymətləndirdi.

Deputat qeyd edib ki, Çin "Bir kəmər, bir yol" təşəbbüsü ilə Asiyanı, Avropanı və Afrikanı birləşdirən nəhəng ticarət və infrastruktur şəbəkəsi formalaşdırır. Ölkəmizin nəqliyyat və logistika imkanları, xüsusilə Zəngəzur dəhlizi, (TRIPP) Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhliz) Asiyanın məhsul və resurslarının Avropa bazarına çıxışı üçün əvəzolunmaz körpü rolunu oynayır.

Azərbaycan ilə Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) arasında əməkdaşlıq isə böyük perspektivlər vəd edir: "Azərbaycan hazırda ŞƏT-də dialoq tərəfdaşı statusuna sahibdir. Bu mötəbər təşkilatla əməkdaşlığını uğurla inkişaf etdirən Azərbaycan Şanxay Əməkdaşlıq Təşkilatının təməlində dayanan prinsipləri bölüşür. Əminliklə demək olar ki, bu səfər Azərbaycan-Çin əlaqələrinin daha da inkişafına, ölkəmizin beynəlxalq siyasətdə mövqelərinin daha da möhkəmlənməsinə böyük töhfə verəcək".

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 2 sentyabr (№185).- S.8.